Aqrar Xidmətlər
Agentliyi



# Pambıq- qiymətli texniki bitkidir

## Əhəmiyyəti

- Pambıq lifi toxuculuq sənayesinin əsas xammalını təşkil etməklə yanaşı, yağından ərzaq kimi, heyvandarlıqda yemindən istifadə olunmaqla kimya sənayesində geniş tətbiq olunur

- Pambıq mahlıcından təxminən 200 adda məhsul alınır



# Azərbaycanda becərilən əsas sortları

- Gəncə-110
- Gəncə-182
- Loqos
- ADN-123
- Ağ qızıl
- Beyaz Altın-440
- Flash

kimi yerli və introduksiya olunmuş seleksiya sortları əkilir



# Pambığın səpini

- Toxum pambıq zavodlarında hommoz, kökçürümə xəstəliklərinə, **mənənə və** trips ziyanvericilərinə qarşı mübarizə məqsədi ilə dərmanlanır

- Səpinə başlamaq üçün optimal müddət, torpağın 8-10 sm dərinliyində temperaturun 12°-14° C-də sabitləşdiyi vaxtdan sonra hesab olunur

- Muğan və Mil-Qarabağ zonasında optimal səpin müddəti aprel ayının birinci ongünlüyündən sonra, Şirvan zonasında isə ikinci ongünlükdən sonrakı müddət hesab olunur

- Səpin ilk növbədə yüngül mexaniki tərkibli torpaqlarda keçirilir

- **Ağır** mexaniki tərkibli torpaqlarda səpin üçün müəyyən edilmiş müddətin sonunda **aparılır**

- Çiyid səpini **səpinqabağı becərmənin** bilavasitə ardınca aparılmalıdır. Əks halda çiyid yatağı dərinliyində nəmlik itir, nəticədə çıxış **zəifləyir**





Bakı şəhəri, Nəcəf Nərimanov küçəsi, 7 A

Çağrı Mərkəzi **1652**

info@axa.gov.az

**www.axa.gov.az**

Aqrar Xidmətlər
Agentliyi